# Bakı – Azərbaycan Respublikası

## 31 Dekabr 2021 cı il tarixdə bitən il üzrə Müstəqil Auditor Rəyi və Maliyyə Hesabatları

**MÜNDƏRİCAT**

*Səhifə*


**Rəhbərliyin Hesabatı ........................................................................2 – 3**

**Rəhbərliyin məsuliyyəti haqqında bəyanı.......................................4 – 7**

**Müstəqil Auditor rəyi ....................................................................... 8 – 10**

**Mühasibat Balansı ........................................................................11-12**

**Mənfəət (Zərər) Haqqında Hesabat ................................................ 13**

**Kapitalda Dəyişikliklər Haqqında Hesabat .................................... 14 – 17**

**Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat .............................. 18 – 19**

**Maliyyə Hesabatlarina dair Qeydlər .............................................. 20 – 41**


**BAKI – 2022-ci il**

## Rəhbərliyin Hesabatı

**Rəhbərlik** 31 Dekabr 2021–cı il tarixdə bitən il üzrə öz hesabatını və audit olunmuş maliyyə hesabatlarını təqdim etməkdən məmnundur.

## Əsas Fəaliyyət:

"BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ" Publik Hüquqi Şəxsin (bundan sonra Publik Hüquqi Şəxsin) əsas fəaliyyət növü nizamnaməyə uyğun olaraq Ümumi xarakterli Dövlət İdarəetməsi fəaliyyətindən ibarətdir və qanuna zidd olmayan digər fəaliyyət növlərini yerinə yetirməkdir.

## Biznes Əməliyyatlarının İcmalı və Fəaliyyətin Gələcək İnkişaf Perspektivləri

Publik Hüquqi Şəxsin əsas fəaliyyətindən gəliri 31 Dekabr 2021 – cı il tarixdə bitən il üzrə 18196.58.91 AZN (o cümlədən Gəlirlər üzrə azadolmalar və güzəştlər 1806516.91 manat, sair əməliyyatlardan gəlir 13142.00 manat), xərclər- 1806516.91 AZN olmuşdur. 31 Dekabr 2021– cı il tarixə ümumi mənfəəti 13142.00 AZN, keçmiş illərin çıxılası zərəri 0.00 AZN, Keçmiş illərin zərəri çıxılmaqla vergiyə cəlb olunan mənfəət 13142.00 AZN, il ərzində mənfəətlik dərəcəsi 0.72% və xalis mənfəəti 10513.60 AZN (31 dekabr 2020 – ci il tarixə ümumu gəliri 1437551.00 AZN (o cümlədən Gəlirlər üzrə azadolmalar və güzəştlər 1437551.00 manat, sair əməliyyatlardan gəlir 0.00 manat), xərclər-1437551.00 AZN, ümumi mənfəəti 0.00 AZN, il ərzində mənfəətlik dərəcəsi 0 % və xalis gəliri 0.00 AZN) olmuşdur. İdarə heyəti gələcək ilin nəticələri üçün nikbindir və Publik Hüquqi Şəxsin fəaliyyətini təkmilləşdirməyi ümid edirlər.

| | **2021** | **2020** |
|---|---|---|
| | **AZN** | **AZN** |
| **Ümumi** | 1819658.91 | 1437551.00 |
| **Ümumi mənfəət (zərər)** | 13142.00 | 0 |
| **Mənfəətlik dərəcəsi %** | **0.72** | **0** |
| **Xalis mənfəət/ (zərər)** | 10513.60 | 0 |
| **Xalis mənfəət/ (zərər) %** | **0.58** | **0** |

"BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ" Publik Hüquqi Şəxsi 2021-cı ili 10513.60 AZN xalis mənfəətlə başa vurmuşdur.

## Risklərin İdarə olunması və Daxili Nəzarət Sistemi:

Publik Hüquqi Şəxs davamlılığa, məşğulluğa və əlavə gəlirliliyə nail olmaq üçün risklərin idarə olunmasına böyük əhəmiyyət verir. Risklərin idarə edilməsinin strukturu riskləri müəyyən edir, qiymətləndirir, idarə edir və risklər haqqında ardıcıl və etibarlı əsasda hesabat verir. Əsas risklərə kredit, bazar (likvidlik, faiz dərəcəsi və xarici valyuta məzənnələri) və əməliyyat riskləri daxildir.

Rəhbərlik daxili nəzarət sisteminin mövcudluğuna və onun davamlı səmərəliliyinin yoxlanmasına cavabdehlik daşıyır. Yuxarıdakıları nəzərə alaraq, Publik Hüquqi Şəxs idarəetmə və informasiya sistemləri vasitəsi ilə davamlı olaraq riskləri nəzərdən keçirir.

**Fəaliyyətin Fasiləsizliyi:**

Əlavə edilmiş maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmışdır. Hesabatları hazırlayarkən rəhbərlik tərəfindən Publik Hüquqi Şəxsin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini həyata keçirmə qabilliyyəti qiymətləndirilmişdir. Rəhbərlik Publik Hüquqi Şəxsin fasiləsizlik prinsipinə əsasən fəalliyətini davam etdirməsinə şübhə yarada biləcək, onları hadisələrlə və vəziyyətlə bağlı qeyri-müəyyənliklərin olmasına inandıracaq hər hansı sübutla qarşılaşmamışdır.

**Kreditor borclarının ödənilməsi siyasəti:**

Publik Hüquqi Şəxs təşkilatlarla razılaşdırılmış müddət və şərtlərlə borcun ödənilməsi siyasətini həyata keçirir. Siyasətin məqsədi standard ödəniş sisteminin tətbiq edilməsidir.

**Balans tarixindən sonrakı hadisələr:**

Rəhbərliyin fikrincə, maliyyə ilinin sonundan maliyyə hesabatlarının hazırlandığı tarixədək olan dövrdə Publik Hüquqi Şəxsin bitmiş maliyyə ilinin əməliyyatlarına əhəmiyyətli təsir göstərə biləcək hər hansı əhəmiyyətli və qeyri-adi əməliyyat və ya hadisə baş verməmişdir.

**Torpaq, tikili və avadanlıqlar:**

Torpaq, tikili və avadanlıqlar üzrə hərəkət maliyyə hesabatlarına 4 nömrəli qeyddə göstərilmişdir.

**Nizamnamə Kapitalı**

Publik Hüquqi Şəxsin Nizamnaməsinə əsasən ilkin nizamnamə fondu (elan edilmiş) 4870743.00 (yüz min) manat təsdiq edilmişdir.

Publik Hüquqi Şəxsin təsisçisi: Azərbaycan Respublikası- 100%

**Rəhbərliyin məsuliyyəti**

Azərbaycan Respublikası Mülki qanunvericiliyi Rəhbərlikdən hər bir maliyyə ili üçün Publik Hüquqi Şəxsin ümumi vəziyyətini və maliyyə ili üçün mənfəət və zərərini düzgün və ədalətli şəkildə təqdim etmək imkanı verən maliyyə hesablarını hazırlamağı tələb edir.

Nəzərdən keçirilən il üzrə audit olunmuş maliyyə hesabatları dövlət qanunlarına uyğun olaraq hesablanmışdır. Rəhbərlik təsdiq edir ki, Publik Hüquqi Şəxsin maliyyə vəziyyətini istənilən zaman lazımi dəqiqliklə açıqlıya bilən və onların maliyyə hesabatlarının müvafiq qanunvericiliyin tələblərinə uyğun olmasını təmin edən, uyğun və adekvat mühasibat müxabirləşməsinin doğruluğuna (maintenance) əhəmiyyətli dərcədə diqqət yetirilib. Rəhbərlik həmçinin təsdiq edir ki, maliyyə hesabatlarının ədalətli şəkildə əks etdirməsi və Publik Hüquqi Şəxsin maliyyə vəziyyətini və onun əməliyyatlarının nəticələrini əsaslandırılmış şəkildə təqdim edilməsi məqsədilə uyğun uçot siyasəti seçilmiş və ardıcıllıqla tətbiq edilmişdir.

İdarə Heyətinin Sədri: Şəfiyev Fərid Rauf oğlu

Baş mühasib: Xəlilov Xəlil Tacir oğlu

"BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ" Publik Hüquqi Şəxsi

*"_30_" may 2022-ci il*

M.Y

Azərbaycan Respublikası Publik Hüquqi Şəxsi BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ The Publik Legal Entity The Republic of Azerbaijan